**Ə.X.Nuriyev**

**UOT:338.43; JEL: Q10; Q18.**

# Azərbaycanın kənd təsərrüfatı yeni inkişaf mərhələsində

***Xülasə***

*Məqalədə Azərbaycanın kənd təsərrüfatının inkişafı üçün böyük imkanlara malik olduğu göstərilir. XX əsrin əvvəllərində və Sovet dövründə onun inkişafına aid qısa məlumat verilir. Müstəqillik illərində, xüsusilə 2015-2019-cu illərdə kənd təsərrüfatının inkişafı üçün həyata keçirilmiş tədbirlərin verdiyi müsbət nəticələr təhlil olunur, sonra kənd təsərrüfatının ixtisaslaşmış sahələrinin və kiçik sahibkarlığın gələcək inkişafı üçün təkliflər irəli sürülür.*

***Açar sözlər:*** *kənd təsərrüfatı, MDB üzvü, davamlı inkişaf, məhsul artımı, bitkiçilik, heyvandarlıq.*

## Giriş

Kənd təsərrüfatı iqtisadiyyatın çox mühüm sahəsi olub, sənayenin xammalla, əhalinin ərzaq məhsulları ilə təminatının əvəz olunmaz mənbəyidir. Kənd təsərrüfatı əhalinin müvafiq işlə təminatında, işsizlik problemlərinin həllində də çox mühüm rol oynayır. Buna görə də dünyanın bütün ölkələrində kənd təsərrüfatının inkişafına çox böyük diqqət və qayğı göstərilir. Bu cəhətdən Azərbaycanda kənd təsərrüfatının inkişafı üçün çox əlverişli şərait vardır.

## Azərbaycanın kənd təsərrüfatı yeni inkişaf mərhələsi

Azərbaycanın əlverişli coğrafi mövqeyi, münbit torpaqları, əlverişli, zəngin iqlim şəraiti və zəhmətsevər əhalisi burada kənd təsərrüfatının və onun xammalını emal edən sahələrin inkişafı üçün geniş imkanlar yaradır. Bu imkanlardan istifadə etməklə hələ qədim dövrlərdən başlayaraq Azərbaycanda kənd təsərrüfatının müxtəlif sahələrinin ixtisaslaşması və inkişafı öz dövrünə görə yüksək səviyyəyə çatmışdı. 1913-1914-cü ilərdə Zaqafqaziyada istehsal edilən pambığın 70%-ə, baramanın 50%-ə qədəri, istehsal edilən ipəyin 60-70%-i Azərbaycanın payına düşürdü. Zaqafqaziyada olan üzüm bağlarının 33,2%-i Azərbaycanın ərazisində idi. Respublikada irili, xırdalı 1300 şərab, araq, konyak, spirt istehsalı müəssisələri fəaliyyət göstərirdi. Azərbaycanın sənaye məhsulları, o cümlədən xalça, şərab, ipək, pambıq parça Orta Asiya, Rusiya, İran, Qafqaz ölkələri ilə yanaşı dünyanın bir çox digər ölkələrinə də ixrac olunurdu. Lakin kənd təsərrüfatı və onun xammalını emal edən sahələr öz inkişafının ən yüksək səviyyəsinə keçən əsrin 70-80-ci illərində ümummilli liderimiz Heydər Əliyev Azərbaycan Kommunist Partiyasına rəhbərlik etdiyi dövrdə çatmışdı. 1981-1985-ci illərdə Azərbaycanda hər il orta hesabla 1829 min ton üzüm, 5,5 min ton barama (1984-cü ildə 2126 min ton üzüm, 5,7 min ton barama), 823,3 min ton pambıq, 59,9 min ton tütün, 32 min ton çay, 569,2 min şərti banka meyvə-tərəvəz konservi istehsal olunmuşdu. Məhz bu illərdə kənd təsərrüfatı öz inkişafının ən yüksək səviyyəsinə çatmışdı. Lakin müstəqillik ərəfəsində və müstəqilliyin ilk illərində məlum obyektiv və subyektiv səbəblər nəticəsində iqtisadiyyatın başqa sahələri kimi kənd təsərrüfatı da dərin böhrana düşdü, böyük dağıntıya məruz qaldı.

1993-cü ildən başlayaraq ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə kənd təsərrüfatı dövlətin iqtisadi siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmiş və bu sahədə dərin islahatlar aparılmış, ərzaq təhlükəsizliyini təmin etmək üçün tədbirlər kompleksi həyata keçirilmişdir. Nəticədə kənd təsərrüfatı məhsulu istehsalının azalmasının qarşısı alınmış, 1996-1997-ci illərdən kənd təsərrüfatında məhsul istehsalı artmağa başlamışdır. Sonrakı illərdə kənd təsərrüfatı sahibkarlarına verilən subsidiyalar, toxum, gübrə, texnika, damazlıq mal-qara almaq üçün verilən güzəştli kreditlər, kənd

*©Ə.X.Nuriyev i.e.d., prof. AMEA-nın müxbir üzvü,əməkdar elm xadimi*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

təsərrüfatı işçilərinin torpaq vergisi istisna olmaqla bütün vergilərdən azad edilməsi, regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarında nəzərdə tutulan vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi kənd təsərrüfatının inkişafına müsbət təsir etmişdir.

Respublikada 2004-2013-cü illərdə kənd təsərrüfatı məhsulu istehsalı 1,5 dəfə artmışdır. 2014-cü ildən başlayaraq aqrar sahənin strukturunun təkmilləşməsi, onun kadr təminatının yaxşılaşması, vergi güzəştlərinin davam etdirilməsi, idarəetmənin təkmilləşməsi istiqamətində dərin islahatlar aparılmağa başlandı. Yeni torpaq sahələrinin istifadəyə verilməsi və torpaqlardan səmərəli istifadə edilməsi, tarixən ixtisaslaşmış, daha səmərəli kənd təsərrüfatı sahələrinin: üzümçülük, baramaçılıq, pambıqçılıq, tütünçülük, çayçılıq, fındıqçılıq, xurma, zeytun istehsalı sahələrinin əvvəllər toplanmış təcrübəni nəzərə almaqla üstün sürətlə inkişaf etdirilməsi, kənd təsərrüfatına verilən güzəştli kreditlərin artırılması, kənd təsərrüfatının ərazi təşkilinin yeni mütərəqqi formalarının (kooperativlərin təşkili, aqroparklar yaradılması və i.a.) tətbiqi istiqamətində tədbirlər həyata keçirildi. Aparılan islahatlar, həyata keçirilən tədbirlər özünün müsbət nəticələrini verməyə başladı. Bu nəticələr birinci növbədə istehsal edilən kənd təsərrüfatı məhsullarının ilbəil artmasında, Azərbaycanın kənd təsərrüfatı dayanıqlı inkişaf edən, MDB üzvü olan ölkələr sırasına çıxmasında öz ifadəsini tapdı. Bunu aşağıdakı diaqramdan aydın görmək olar.

**Diaqram 1.**

**Kənd təsərrüfatı məhsulunun artımı (%)**






Diaqramda MDB üzvü olan ölkələrdən yalnız beşinin göstəricilərinin verilməsinin səbəbi ondan ibarətdir ki, yalnız bu respublikalarda son beş ildə kənd təsərrüfatı məhsulu istehsalı davamlı artmışdır. Bu respublikalar arasında Azərbaycanın tutduğu yer həm də MDB-də tutduğu yeri göstərir. Beləliklə, islahatlar nəticəsində Azərbaycanın kənd təsərrüfatı daha davamlı və sürətli inkişaf yoluna çıxmışdır. Azərbaycan 2014-cü ilə nisbətən son dörd ildə kənd təsərrüfatı məhsulu istehsalının artım sürətinə görə MDB məkanında Tacikistandan sonra ikinci yeri tutur. Bu illərdə kənd təsərrüfatı məhsulu istehsalının artımı MDB ölkələrinin orta göstəricisinə nisbətən 1,8 dəfə çox olmuşdur. Qeyd etmək lazımdır ki, iqtisadiyyatın bütün sahələrinin, o cümlədən kənd təsərrüfatının inkişadfına görə 2019-cu il də uğurlu olmuşdur. 2019-cu ildə kənd təsərrüfatında məhsul istehsalı 1,7%, kənd təsərrüfatı məhsullarını emal edən müəssisələrin məhsul ixracı 14% artmışdır. Ümumiyyətlə, 2000-ci ilə nisbətən 2018-ci ildə Azərbaycanda kənd təsərrüfatı məhsulu istehsalı 217,3% təşkil edir. Bu

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

artıma görə Azərbaycan MDB respublikaları arasında Tacikistan (350%) və Özbəkistan (275%) respublikalarından sonra 3-cü yeri tutur. Bununla bərabər Azərbaycanda 2000-ci ilə nisbətən 2018-ci ildə kənd təsərrüfatı məhsulunun artım göstəricisi MDB-nin orta artım göstəricisindən (181%) də yüksəkdir. 2014-cü ildən başlayaraq aqrar sahədə aparılan islahatlar sonrakı illərdə kənd təsərrüfatı məhsulu istehsalının daha sürətlə artmasına səbəb olmuş, kənd təsərrüfatı məhsulu istehsalının artımında MDB məkanında Azərbaycanın qabaqcıl mövqeyi daha da möhkəmlənmişdir. Bununla bərabər Azərbaycanın kənd təsərrüfatının, xüsusilə onun ixtisaslaşmış sahələrinin ümumi inkişaf səviyyəsi mövcud imkanlara nisbətən aşağıdır. 2018-ci ildə kənd təsərrüfatında cəmi 7,0 mlrd. manat, meşə təsərrüfatı və balıqçılıqla birlikdə 7274,5 milyon manat məhsul istehsal edilmişdir ki, bu da ümumi daxili məhsulun 9,1%-ni təşkil edir. İndi əsas vəzifə kənd təsərrüfatının mövcud inkişaf sürətini qoruyub saxlamaq, ixtisaslaşmış kənd təsərrüfatı sahələrinin və ümumiyyətlə, kənd təsərrüfatının daha yüksək səviyyədə inkişafına nail olmaqdır.

**Cədvəl 1.**

**Azərbaycanda ixtisaslaşmış kənd təsərrüfatı sahələrinin inkişaf xüsusiyyətləri**

| **Kənd təsərrüfatı sahələri** | **Əkin sahəsi (min h.)** | | | **Ümumi məhsul (min ton)** | | | **Məhsuldarlıq (sent.)** | |
|---|---|---|---|---|---|---|---|---|
| | 2010 | 2015 | 2018 | 2010 | 2015 | 2018 | 2015 | **2018** |
| **Pambıq** | 30,2 | 18,7 | 132,5 | 33,2 | 35,2 | 233,6 | 18,8 | **17,6** |
| **Tütün** | 1.4 | 1,4 | 3,4 | 3,2 | 3,5 | 6,9 | 25,4 | **19,0** |
| **Üzüm** | 15,4 | 16,1 | 16,1 | 129,5 | 157,1 | 167,6 | 86,6 | **92,8** |
| **Çay yarpağı** | 0,6 | 1,0 | 1,1 | 0,54 | 0,58 | 0,87 | 22,4 | **11,1** |
| **Tərəvəz** | 81,1 | 77,2 | 63,5 | 1189,5 | 1275,3 | 1521,9 | 158 | **162** |
| **Meyvə və giləmeyvə** | **127,7** | **144,1** | **199,7** | **70,6** | **71,4** | **68,0** | **71,4** | **68,0** |

Mənbə: Azərbaycanın statistik göstəriciləri. 2019



2015-ci ilə nisbətən 2018-ci ildə kənd təsərrüfatında ümumi əkin sahəsi 152,6 min hektar artaraq 1585,4 min hektardan 1738 min hektara çatmışdır. Artan əkin sahələrində kənd təsərrüfatı müəssisələri təşkil olunmuşdur. Belə ki, kənd təsərrüfatı müəssisələrinin sayı artaraq 2005-ci ildəki 68,8-dən 2015-ci ildə 410,1-ə, 2018-ci ildə isə 660,9-a çatmışdır. 2016-2018-ci illərdə kənd təsərrüfatında 250,8, o cümlədən bitkiçilikdə 129,6, heyvandarlıqda 121,2 yeni müəssisə yaranmışdır. Yaradılmış müəssisələrin bir hissəsi aqroparkların, kooperativlərin və heyvandarlıq komplekslərinin payına düşür. Ümumiyyətlə, Azərbaycanın 33 rayonunda 51 aqropark yaratmaq nəzərdə tutulur və bunun 16-sı artıq fəaliyyət göstərir. Yaranmış yeni müəssisələr onlardan düzgün istifadə ediləcəyi şəraitdə kənd təsərrüfatının gələcək inkişafında mühüm rol oynaya bilər. Cədvəldən göründüyü kimi əkin sahələrinin artımı əsasən pambığın və meyvə və giləmeyvə istehsalı sahələrinin payına düşür. Bu iki sahədə 2016-2018-ci illərdə əkin sahələri 169,8 min hektar artmışdır. Lakin üzüm, çay, tərəvəz istehsalı sahələrində əkin sahələrinin və məhsul istehsalının, məhsuldarlığın əsaslı artımı müşahidə olunmur. Bu sahədə üzümçülüyü və çayçılığı xüsusilə diqqət mərkəzində saxlamaq lazım gəlir. Keçən üç ildə pambıq istehsalı artsa da məhsuldarlıq aşağıdır (2015-ci ildə 18,8 sentner, 2018-ci ildə 17,6 sentner). Üzümçülükdə məhsuldarlıq kifayət qədər yüksək olsa da əkin sahələri demək olar ki, artmır (2019-cu ildə 16,1 min hektar olmuş, 201,8 min ton üzüm istehsal olunmuşdur).

Çayçılıqda məhsul istehsalı kifayət qədər sürətlə artmır. Bu sahə üzrə inkişaf səviyyəsi dövlət proqramında nəzərdə tutulan səviyyədən aşağıdır. 2019-cu ildə əkin sahəsi cəmi 8,1 min hektar olan ərazidən toplanmış məhsul 930 ton olmuşdur. Bu 80-ci illərin göstəricilərinə

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

nisbətən müqayisə olunmaz dərəcədə azdır. Bizim məqsədimiz o deyil ki, üzümçülükdə, çayçılıqda əkin sahələri və məhsul istehsalı 80-ci illərdə olduğu səviyyəyə çatdırılsın. Məlum səbəblərdən bu mümkün deyil. Lakin bu sahələrdə mövcud imkanlardan səmərəli istifadə olunmalıdır. Yaxın 10 ildə çay əkini sahələrini minimum 5-6 min hektara, məhsul istehsalını 14-15 min tona, üzümçülükdə əkin sahəsini 90-100 min hektara, məhsul toplanmasını 0,9-1,0 mln. tona çatdırmaq imkanı var. Lakin bunun üçün mühüm bir cəhəti nəzərə almaq lazımdır. Çay bitkisi və üzüm ağacları əkiləndən 4-5 il sonra məhsul verir. Bu səbəbdən hər il mənfəət götürmək prinsipi ilə işləyən sahibkarlar bu iki çox vacib sahənin inkişafına can atmırlar. Yaxşı olar ki, bu sahədə təşkilatçılıq işini dövlət öz üzərinə götürsün. Bu iki sahə də məhsul verməyə başlayanda bu sahələr sahibkarlara icarəyə verilə, satıla, dövlət-sahibkar əməkdaşlığı əsasında inkişaf etdirilə bilər. Kənd təsərrüfatında kiçik sahibkarlığın artımı qeyri sabit xarakter daşıyır. Bunu aşağıdakı cədvəldən də aydın görmək olar.

**Cədvəl 2.**

**Kiçik sahibkarlıq subyektlərinin vəziyyəti**

| Göstəricilər | İllər | | | |
|---|---|---|---|---|
| | **2015** | **2016** | **2017** | **2018** |
| **Respublikada kiçik sahibkarlıq subyektlərinin ümumi sayı** | 187407 | 192002 | 169982 | 241183 |
| **Ondan: Fiziki şəxslər- fərdi sahibkarlar** | 169560 | 175167 | 150447 | 218494 |
| **O cümlədən** | | | | |
| **1. Sənayedə kiçik sahibkarlıq subyektlərinin ümumi sayı** | 4551 | 6152 | 6302 | 8452 |
| **Ondan: Fiziki şəxslər-fərdi sahibkarlar** | 3310 | 4800 | 4891 | 6785 |
| **2. Tikintidə kiçik sahibkarlıq subyektlərinin ümumi sayı** | 2340 | 2422 | 2315 | 2983 |
| **Ondan: Fiziki şəxslər-fərdi sahibkarlar** | 895 | 935 | 701 | 1094 |
| **3. Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda kiçik sahibkarlıq subyektlərinin ümumi sayı** | 3193 | 3340 | 2976 | 3107 |
| **Ondan: Fiziki şəxslər- fərdi sahibkarlar** | 1534 | 1468 | 955 | 907 |

Mənbə: Azərbaycanın statistik göstəriciləri. 2019, səh. 173

Cədvəldən göründüyü kimi respublikanın iqtisadiyyatında, o cümlədən sənayedə və tikintidə 2015-ci ilə nisbətən 2018-ci ildə fərdi sahibkarların sayı kifayət qədər artmışdır. Lakin kənd təsərrüfatında kiçik sahibkarlıq subyektlərinin sayı nisbətən azdır. Burada isə fiziki şəxslər - fərdi sahibkarların sayı daha azdır, həm də azalmağa meyllidir. Kiçik sahibkarlıq subyektlərinin sayı 2015-2016-cı illərə nisbətən 2017-2018-ci illərdə, fiziki şəxslər – fərdi sahibkarların sayı isə 2015-ci ildən sonra ildən-ilə azalmışdır. Əlbəttə, bunun obyektiv səbəbləri də var. Kənd təsərrüfatında müəssisələr yaranması fərdi sahibkarların say artımına mənfi təsir edə bilər. Bununla bərabər kənd təsərrüfatında fərdi sahibkarlığa diqqətin artırılması məqsədyönlü olardı. Onların su təminatının yaxşılaşdırılması, məhsullarının tədarükü və satışına yardım edilməlidir. Birinci növbədə çayçılıq, üzümçülük, baramaçılıq, zeytun istehsalı sahələrinin inkişafına dövlətin maliyyə-təşkilati yardım göstərməsi gücləndirilməlidir. Yuxarıda göstərdiyimiz kimi, çay bitkisi əkiləndən 4-5 il sonra məhsul verməyə başlayır. Sahibkarlar bu səbəbdən bu sahəyə kapital qoymaq istəmirlər. Nəticədə çayçılığın inkişafı üzrə hazırlanmış proqramın icrası nəzərdə tutulmuş səviyyədə yerinə yetirilmir. Bu sahədə müvafiq sahibkarları, dövlət icra orqanlarını, bələdiyyə rəhbərlərini və alimləri cəlb etməklə xüsusi müşavirə keçirmək, bu sahədə hər kəsin vəzifələrini və



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

məsuliyyətini müəyyənləşdirmək olar. Başqa bir yol isə çayın əkilməsi və məhsul verənə qədər becərilməsi, məhsul verməyə başlayanda həmin sahələrin sahibkarlara satılması, icarəyə verilməsi və i.a. ola bilər. Çayçılığın inkişafı ilə əlaqədar bütün məsələlərin həlli yalnız sahibkarların öhdəsinə verilsə bu problem tam həllini çətin tapar.

Ermənistanın işğalından azad olunmuş ərazilərdə kənd təsərrüfatı sahələrinin bərpası və inkişaf etdirilməsi respublikanın kənd təsərrüfatının inkişafında çox mühüm rol oynayacaqdır. Bu zaman işğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının inkişafında tarixən toplanmış müsbət təcrübənin bərpası, sərf olunan maliyyə və digər vəsaitlərin mümkün qədər tez məhsul verməsi, əhalinin əsasən yerli istehsal hesabına tələbatının ödənməsi prinsipləri əldə rəhbər tutula bilər. Bu əsasla əvvəlcə bir il ərzində məhsul verən sahələrin (taxılçılıq, pambıqçılıq, tütün, tərəvəz məhsulları istehsalı) inkişaf etdirilməsi, digər sahələrdə isə (üzümçülük, baramaçılıq, meyvəçilik və i.a.) inkişaf üçün hazırlıq işləri aparılmalıdır.

Kənd təsərrüfatının inkişafı üçün mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri də bu sahədə vergi sisteminin qaydaya salınmasıdır. Yaddan çıxarmaq olmaz ki, bütün başqa əhəmiyyəti ilə bərabər vergi həm də vətəndaşları dövlətçilik ruhunda tərbiyə etmək, əgər o, əmin-amanlıq şəraitində yaşayırsa onun təminatçısının dövlət olduğunu və bunun dövlətin vəsaiti hesabına başa gəldiyini dərk etmək vasitəsidir. Bütün dünyada olduğu kimi Azərbaycanda da dövlət kənd təsərrüfatının inkişafına maliyyə yardımı göstərməlidir və göstərir. Lakin fəaliyyət göstərən, kənd təsərrüfatından ardıcıl olaraq gəlir götürən müəssisələrin aşağı dərəcəli olsa da vergiyə cəlb edilməsi vacibdir.

**Nəticə**

Kənd təsərrüfatının vergiyə cəlb edilməməsi gizli (kölgə) iqtisadiyyatının yaranmasında da mühüm rol oynayır. Göründüyü kimi bu məsələ üzərində ətraflı düşünmək vaxtı çatmışdır. Kənd təsərrüfatında uçot və nəzarətin təkmilləşməsinə də ehtiyac var. Eyni zamanda sahibkarlıq fəaliyyətində obyektiv səbəblərdən çətinlik yarandıqda vəziyyətdən çıxmaq üçün dövlət həmişə olduğu kimi təşkilati və yaxud maliyyə yardımı göstərə bilər.



## Ədəbiyyat


1. Azərbaycanın statistik göstəriciləri. ARDSK, Bakı – 2019.
2. Султанов г. Нах. Край и его экономика. Баку – 1927 г.
3. Народное хозяйство Азербайджанской ССР в 1927г. Азгосиздательство. Баку – 1988г.
4. Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2019-2023) 2019-cu ildə yerinə yetirilməsinə həsr edilmiş konfransın materialları. “Xalq” qəzeti, 04.02. 2020-ci il.
5. Ə.X. Nuriyev. Azərbaycan Respublikasının böhran vəziyyətindən çıxması və inkişafının prinsipial məsələləri. Bakı, 1992, 125 səh.
6. Ə.X. Nuriyev. Davamlı və tarazlı regional inkişaf. Bakı, Avropa nəşriyyatı, 2017, 242 s.
7. Ə.X. Nuriyev, M.Ə. Abdalova. İqtisadiyyatın dövlət tənzimlənməsinin təkmilləşməsi ətrafında düşüncələr, təklif və tövsiyyələr. bakı, “Elm və bilik” nəşriyyatı – 2019, 48 s.


© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**А.Х. Нуриев**
**Член.кор. НАНА, заслуженный деятель науки, д.э.н., профессор.**

**Сельское хозяйство Азербайджана на новом этапе развития**

**Резюме**

*В статье показано, что Азербайджан имеет большой потенциал для развития сельского хозяйства. Дается краткий обзор его развития в начале 20 века и в советский период. Проанализировано положительное влияние мер, принятых в годы независимости для развития сельского хозяйства, особенно в 2015-2019 годах, а также даны предложения по дальнейшему развитию специализированных сельскохозяйственных секторов и малых предприятий.*

***Ключевые слова:*** *сельское хозяйство, член СНГ, устойчивое развитие, рост продукции, растениеводство, животноводство.*

**A.X.Nuriev**
**Corresponding Member of ANAS, Honored Scientist, doctor of economics, professor.**

**Azerbaijan's agriculture at a new stage of development**

**Summary**

*The article shows that Azerbaijan has great potential for the development of agriculture. A brief overview of its development at the beginning of the 20th century and in the Soviet period is given. The positive impact of measures taken during the years of independence for the development of agriculture, especially in 2015-2019, is analyzed, as well as proposals for the further development of specialized agricultural sectors and small enterprises are given.*

***Key words:*** *agriculture, the CIS member, sustainable development, product growth, crop production, animal husbandry.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 04.10.2021.***
***Çapa qəbul olunub: 13.10.2021.***



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az